# MÜXƏMMƏS

## Mirzə Şəfi Vazeh

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

Ey nəzakət çəməni içrə xuraman Süsəni, Xubluq kişvərinin təxtinə sultan Süsəni, Sədəğin yayı, qaşın sədqəsi qurban Süsəni, Bir baxışla yaraşır kim ala yüz can Süsəni, Belə getsə tez olur dillərə dastan, Süsəni. Hərəkatü rəvişin qıldı səhi sərvini pəst, Sünbülə türreyi-zülfün şikəni verdi şikəst, Laləni dağa salıb ruyin edib badəpərəst, Ey könül, qaş-göz arada nə gəzirsən belə məst? Yoxdu vəhmin ki, ara yerdə tökə qan, Süsəni. Ey mələk, əbr yüzün gündümü, ya bədri-təmam? Kim ki, ruyindən olur məst, ona badə həram, Pərdəsiz cilvələnib naz ilə ver qəddə qiyam, Küfri-zülfin dağıdıb, məst çıxıb, eylə xüram, Bilələr ta ki, nədir küfr ilə iman, Süsəni. Bu qədü qamətinə ətləsü xara yaraşır, Qaşların guşəsinə qətlimə ima yaraşır, Edə gər zində ləbin ləfzi-Məsiha yaraşır, Səni gər kim ki, sevər başına sevda yaraşır, Ola sərkəştəvü divanəvü heyran, Süsəni. Gün ki, hər gün ki çıxar, dərgahinə səcdə edər, Sərv rəftara gəlir ,qılsa qədin bağa üzər, Qönçə gər ağzın ilə qarşı dura, boynun əyər, Küfri-eşqin yetişib bir yerə kim, ey kafər, Desələr Vazehə böhtandı, müsəlman, Süsəni!